**RÖYA ƏLİYEVA**
ruya.alisoy69@gmail.com
*Naxçıvan Dövlət Universiteti*
*Orcid id: 0009-0005-0376-4043*

# GÖYÇƏ AŞIQ MƏKTƏBİ ŞAİRLƏRİNİN ƏSƏRLƏRİNDƏ SÖZ-İFADƏ YARADICILIĞI

*Göyçə aşıq məktəbi Azərbaycan xalq ədəbiyyatının mühüm qollarından biri olaraq özünəməxsus xüsusiyyətləri və üslubu ilə fərqlənir. Eləcə də, bu məktəbin şairləri söz yaradıcılığı ilə fərqlənib və Azərbaycan poeziyasının inkişafına mühüm töhfələr verib. Onların əsərlərində sözlərin xüsusi şəkildə seçilməsi, ifadələrin poetik gücü və məzmun zənginliyi diqqət çəkir. Məqalədə bu məktəbin şairlərinin əsərlərində söz-ifadə yaradıcılığı araşdırılır. Şairlər metaforalar, təşbehlar, deyimlər və atalar sözləri, simvolika, qafiyə və ritm kimi ədəbi vasitələrdən geniş istifadə edərək dilin zənginliklərini və xalqın mənəvi dünyasını ifadə ediblər. Belə ki, həmin məktəbin şairləri məcazlardan geniş istifadə edərək öz əsərlərində obrazlı ifadələr yaradıblar. Bu ifadələr vasitəsilə onların şeirləri daha təsirli və yaddaqalan olub. Məqalədə göstərilən misallar vasitəsilə aşıqların yaradıcılığı nümayiş etdirilir, onların əsərlərinin Azərbaycan dilinin inkişafına və xalq ədəbiyyatının qorunmasına böyük töhfə verdiyi vurğulanır. Göyçə aşıq məktəbinin şairlərinin söz-ifadə yaradıcılığı gələcək nəsillər üçün ilham mənbəyi olaraq qalır. Məqalədə nümunə olaraq Aşıq Nəcəf və Aşıq Alı kimi tanınmış aşıqların şeirlərindən misallar gətirilir. Bu tanınmış Göyçə aşıqlarının şeirlərində söz-ifadə yaradıcılığı onların poetik ustalığını və dil zənginliyini nümayiş etdirir. Onların əsərlərindəki məcazlar, təşbehlər, epitetlər və deyimlər Azərbaycan ədəbiyyatının qiymətli nümunələrindəndir və bu şeirlər vasitəsilə milli-mənəvi dəyərlərimizin qorunub saxlanması, gələcək nəsillərə ötürülməsi təmin edilir. Göyçə aşıq məktəbinin şairləri dilin inkişafına və xalq ədəbiyyatının qorunub saxlanılmasına böyük töhfə verərək Azərbaycan ədəbiyyatının zənginləşməsinə və milli-mənəvi dəyərlərin yaşamasına xidmət etmişlər. Onların əsərləri dilin ifadə imkanlarını genişləndirir və gələcək nəsillərə xalqın keçmişini, mədəniyyətini öyrənmək üçün dəyərli bir mənbə təqdim edir.*

***Açar sözlər:*** *Göyçə aşıq məktəbi, söz-ifadə yaradıcılığı, Aşıq Nəcəf, Aşıq Alı*

Göyçə aşıq məktəbi özünəməxsus xüsusiyyətləri və üslubu ilə digər aşıq məktəblərindən fərqlənir. Bu məktəbin şairləri dərin mənalı və rəngarəng ifadə tərzi ilə xalq ədəbiyyatının incilərini yaratmışlar. Onların əsərlərində söz-ifadə yaradıcılığı sadəcə dilin zənginliyini göstərməklə qalmayıb, həm də xalqın mənəvi dünyasını, adət-ənənələrini və həyat tərzini əks etdirir .

Göyçə aşıq məktəbinin əsərlərində söz-ifadə yaradıcılığı  xalqın mənəvi dünyasını, adət-ənənələrini və həyat tərzini əks etdirərək oxuculara həm estetik zövq verir, həm də mənəvi dəyərləri qoruyub saxlayır. Aşıq Nəcəf və Aşıq Alı kimi tanınmış şairlərin əsərləri Göyçə aşıq məktəbinin poetik üslubunu və bədii ifadə vasitələrini mükəmməl şəkildə nümayiş etdirir. Onların şeirlərində istifadə olunan poetik vasitələr və ifadə tərzi bu məktəbin fərqliliyini və zənginliyini vurğulayır [Hüseynov. 2008, s.15].

Göyçə aşıq məktəbinin görkəmli nümayəndəsi Göyçəli Aşıq Nəcəfin zəngin ədəbi irsinin Ələsgər ocağındakı və Göyçə mühitindəki yeri başqa yerlərdən olan sənətkarlarla əlaqələrinə sənət xüsusiyyətləri və ən əsası da şeirlərinin dil əlamətləri və s. təhlillərin aparılması zəruri haldır. O, Ələsgər ocağında böyüyüb və bu ocaqdan aldığı təhsil və tərbiyə ilə öz sənətini formalaşdırmışdır. Ələsgər ocağının poeziya ənənələri və ustadlarının təsiri onun yaradıcılığında aydın şəkildə özünü

göstərir [Abbaslı. 2009, s.20].

Göyçəli Aşıq Nəcəf Göyçə mühitində böyük nüfuz sahibi olmuşdur. Onun məclisdəki liderlik keyfiyyətləri, məclislərdəki çıxışları və poeziya yarışmalarında göstərdiyi ustalıq onun sənətkar kimi yüksək qiymətləndirilməsinə səbəb olmuşdur. Aşıq Nəcəf məclislərdə yalnız şeir deməklə kifayətlənməyib, həm də məclisləri idarə etmiş və gənc şairlərə yol göstərmişdir. O, müxtəlif bölgələrdən olan aşıqlarla görüşlər keçirmiş, onların yaradıcılığı ilə tanış olmuş və öz sənətinə yeni rənglər qatmışdır. Bu əlaqələr onun yaradıcılığının inkişafında mühüm rol oynamış və onun poeziyasının çoxşaxəli olmasını təmin etmişdir.

Göyçəli Aşıq Nəcəfin şeirlərinin dil əlamətləri onun sənətinin ən diqqətəlayiq xüsusiyyətlərindən biridir. Onun şeirlərində məcazlar, təşbehlər, epitetlər və deyimlər geniş yer tutur. Aşıq Nəcəfin şeirlərində təbiət təsvirləri, insan duyğuları və milli-mənəvi dəyərlər poetik bir şəkildə əks olunur. Onun şeirlərində istifadə etdiyi dil zəngin və rəngarəng ifadə vasitələri ilə seçilir və bu da onun yaradıcılığının yüksək bədii dəyərini göstərir [İsmayılov, 2006, s.107].

Onun gəraylılarının, qoşmalarının, təcnislərinin, cığalı təcnislərinin, qıfılbəndlərinin, divanilərinin, müxəmməslərinin, deyişmə formalarının üzərində ədəbi- bədii dilin struktur təhlili də əhəmiyyətli məsələlərdəndir. Bu təhlil onun yaradıcılığının dərinliyini, poetik üslubunun rəngarəngliyini və dilin ifadə imkanlarını necə genişləndirdiyini daha yaxşı anlamağa imkan verir.

Gör, başıma nələr gəldi,
Üzü dönmüş qara baxtım?!
Qoydu bir kamana, atdı,
Məni bu diyara baxtım.

Oyan, bu qəflətdə uyma,
Bağrımın başını oyma,
El içində zəlil qoyma,
Eylə dərdə çara, baxtım! [Məmmədov. 2017, s.24].

Bu misralarda şair öz taleyinin gətirdiyi çətinliklərdən və ağrılardan bəhs edir. Onun baxtının üzü dönməsi və onu qəm-qüssə içərisinə atması şeirin əsas mövzularından biridir. Şair taleyini "kaman" ilə müqayisə edərək baxtının onu uzaq diyarlara atdığını bildirir.

Şeirin ikinci hissəsində isə şair taleyindən qəflət yuxusundan oyanmasını və bağrının başını oyub el içində zəlil qalmamasını istəyir. O, taleyindən bir çarə tapmasını dərdə bir çarə olması üçün yalvarır. Bu ifadələr şairin dərin daxili təcrübələrini və ümidsizliyini, həmçinin ümidini əks etdirir.

“Qara baxt”, “Kaman”, “başıma nələr gəldi” kimi ifadələr şairin poetik dilinin əsas elementləridir. Bu bənzətmələr və metaforalar şairin daxili vəziyyətini və hisslərini təsvir etmək üçün istifadə olunur.

“Qara baxt”: “Baxt” taleyi, qisməti ifadə edir. “Qara” sözü isə burada mənfi məna daşıyır, şairin uğursuz, bədbəxt olduğunu vurğulayır. Bu ifadə şairin yaşadığı çətinlikləri və bədbəxtlikləri simvolizə edir.

“Kaman” sözünün mənası yaydır. Şair bu metafora ilə taleyin onu bir ox kimi uzaqlara atdığını təsvir edir. Bu ifadə onun həyatın müxtəlif çətinlikləri ilə üzləşdiyini və bu çətinliklərə qarşı mübarizə apardığını göstərir.

“Başıma nələr gəldi”: Bu ifadə şairin başına gələn çətinlikləri və sınaqları vurğulayır. Şair bu bənzətmə ilə yaşadığı ağrı və əzabları təsvir edir, bu çətinliklərin onun həyatında nə qədər dərin iz buraxdığını göstərir.

Bu bənzətmələr və metaforalar şairin poetik dilini zənginləşdirir və oxucunun onun hisslərini daha yaxşı anlamasına kömək edir. Onun şeirləri xalqının mənəvi dünyasını, həyatın müxtəlif tərəflərini və dərin fəlsəfi düşüncələrini əks etdirir.

Bütün bədii mətnlərdə olduğu kimi gəraylıda da obyektin determinasiyası üst qatda görünür. Bu,

şeirin əsas mövzusunun və məzmununun aydın şəkildə oxucuya təqdim olunmasını təmin edir. Eyni zamanda şairin şəxsi subyektivliyi şeirin dərinliyini və fərdiliyini artırır. Şairin şəxsi təcrübələri, hissləri və düşüncələri şeirin məzmununa xüsusi rəng qatır və onu daha təsirli edir [Abbaslı. 2010, s.69].

Fələk məndən nəzər əydi,
Yönüm qürbət elə düşdü.
Oxum atdım, daşa dəydi,
İşim çox müşkülə düşdü.
Mənim baxtım qara gəldi,
Hər yandan əlim üzüldü.
Nə şad oldum, üzüm güldü,
Dərdim dildən-dilə düşdü [Məmmədov. 2017, s.24].

Fələk (tale) burada metaforik bir simvol olaraq istifadə olunur. Fələyin nəzər əyməsi şairin uğursuzluq və bədbəxtliklə üzləşdiyini göstərir. "Müşkül" sözü çətin və çıxılmaz vəziyyəti ifadə edir. Şairin həyatının mürəkkəb və çətin olduğunu bildirir. "Əlim üzüldü" ifadəsi şairin hər tərəfdən qarşısına çıxan maneələr qarşısında çıxış yolu tapa bilmədiyini bildirir. "Qürbət" yad və kənar yerləri ifadə edir və şairin yad yerlərdə yaşadığı çətinlikləri göstərir. **"Nə şad oldum, üzüm güldü"**: Şair burada ironik bir şəkildə heç bir zaman xoşbəxt olmadığını və üzünün gülmədiyini bildirir.

Aşıq Nəcəfin qoşmaları klassik aşıq ədəbiyyatının mühüm bir parçasıdır və janrın prinsip və mexanizmləri baxımından bir bütöv təşkil edir. O, sadə və təsirli bir dildə, dərin mənalı ifadələrlə oxucunu təsirləndirir [Qasımlı. 2011, s.33].

Ovsunçuyam, ovsun sallam dağlara,
Gəzirəm, tutmağa mar axtarıram.
Xəstə könlüm meylin salıb bağlara,
Yetkin alma, heyva, nar axtarıram [Məmmədov, 2017, s.24].

Birinci misrada şair burada özünü "ovsunçu" (sehrbaz, cadugər) kimi təsvir edir və "ovsun sallamaq" ifadəsi ilə öz yaradıcılıq gücünü və təbiətə təsirini göstərir. "Dağlara ovsun sallamaq" ifadəsi şairin təbiətlə birləşmə və ona hökm etmə arzusunu ifadə edir.

"Mar axtarıram": "Mar" (ilan) burada bir təhlükə və ya çətinlik simvolu kimi istifadə olunur. Şair mar axtararaq təhlükə ilə üzləşməyə və onu aşmağa çalışdığını göstərir.

**"Yetkin alma, heyva, nar axtarıram"**: Burada "yetkin alma", "heyva" və "nar" bənzətmələri istifadə olunub. Bu meyvələr həyatın gözəlliklərini, arzu edilən məqsədləri və nail olmaq istədiyi idealları simvollaşdırır. Şair bu meyvələri axtararaq həyatda çatmaq istədiyi idealları və arzuları təsvir edir.

Sənətkarın "Sumaya", "Qırmızı", "Qarıya", "Gözünə", "Gözələ", "Görmüşəm", "Gəlinə", "Dünyadı bu", "Dolanır", "Çıxdı yenə" rədifli müxəmməsləri də zəngin dil komponentləri ilə seçilir.

Bir qələm qaşlının, xoş baxışlının,
Bir ala gözlünün dağı məndədi.
Bir qarğı saçlının, inci dişlinin,
Bir şirin sözlünün dağı məndədi.

Bir siyah tellinin, fitnə fellinin,
Bir tuti dillinin, ləbi ballının,
Bir incə bellinin, nazik əllinin,
Bir işvə-nazlının dağı məndədi [Məmmədov. 2017, s.25].

Burada "nazik əlli", "incə belli", ", "ləbi ballı", "tuti dilli", "siyah telli", "şirin sözlü", "inci dişli", "qarğı saçlı", "ala gözlü", "xoş baxışlı", "qələm qaşlı" ifadələrindən ustalıqla istifadə etmişdir.

Bunlardan əlavə aşığın “Aşiq olmuşam” şeirində “bu çeşmi xunxara aşiq olmuşam” misrasında “çeşmi xunxar” iafadəsindəki “xunxar” fars kəlməsidir, zalım, qaniçən mənasındadır. “Çeşm” də fars kəlməsi olub göz mənasını ifadə edir. Sənətkar burada təsvir etdiyi gözəli qaniçən kimi təqdim edir.

Aşıq Nəcəfin yaradıcılığı bədii təsvir vasitələri olan epitetlər, bənzətmələr, metaforalar, metonimiya və simvollar kimi dərinlik yaradan ədəbi alətlərlə zənginləşir. Şair bu vasitələri geniş şəkildə istifadə edərək mətnlərinin poetik qatını və estetik dəyərlərini artırır [Məhərrəmov. 1997, s. 103].

Göyçə aşıq məktəbinin ən tanınmış simalarından biri də Aşıq Alıdır. O, zəngin ifadə dərəcəsi ilə tanınan və dövründə sevilən bir aşıqdır. O, ədəbi sənətə böyük münasibət göstərən və öz ifadəsində müəyyən mənalı simvolları və məzmunları ustalıqla birləşdirən bir sənətkardır. Həmçinin, o, mədəni mərkəzləşmə və xalq arasında körpü kimi fəaliyyət göstərərək milli mənsubiyyət və dəyərlərin qorunmasında da önəmli bir rol oynayırdı. Aşıq Alı Göyçə kəndində və digər bölgələrdə bir çox insanın sevgi və hörmətini qazanmış bir şəxsiyyətdir. Aşıq Ələsgərin ustadı olmuş Aşıq Alıya bütün aşıqsevərlərin böyük sevgisi var [İsmayılov. 2002, s.74].

Aşıq Alı xalq dilindəki ifadə dəstələri ilə oxucularının və dinləyicilərinin mədəni və ruhi dünyalarına daxil olaraq onların hisslərini və düşüncələrini ifadə edir. Onun şeirləri həm incəliklərə, həm də dərinliklərə malikdir və bu, onun sənətinin özəlliklərindən biridir.

Aşıq Alı xalqın dilini və ifadə üsullarını yaxşı bilməsi onun mahnıları və şeirlərinin qəlbindən keçən bir çox insanın sevgisini və anlayışını qazanmasını təmin edir. Bu, onun sənətinin xalq arasında köklü və seçilən bir yeri olmasını mümkün edir.

Ölüm haqdı, çıxmaq olmaz əmrdən,
İpək tora halqa salma dəmirdən.
Aydır, gündür gəlib keçir ömürdən
Tələsirik, görən yaza nə qaldı?!

Eşiyə çıxıram, hava məxşuşdu,
Gəzdiyim oylaqlar yadıma düşdü.
Bir gün eşidərsən: Alı da köçdü,
Sındı telli sazım, təzanə qaldı. (https://respublikanews.az/az/news/ qizilvengliasiqali)

Bu şeir ölüm və yaşam arasındakı münasibəti və insanın fani dünyadakı yerini təsvir edir. Sözlər ilə yaradılan təsvir atmosferi və hissləri də yaxşı ifadə edir. Şeirdəki ölüm haqdı, eşik, məxşuş, təzanə qaldı söz və ifadələri təbiiiyi ilə seçilir. Belə ki, ölüm haqdı: “Haqq” sözü burada ölümün qətiyyətli və qorxulu məhəbbətini və möhkəmliyini təsvir edir, “eşik” sözü ölümün qapısının ifadəsi kimi istifadə olunur, ki bu da ölüm haqqında düşündürür. “məxşuş” sözü burada hava şəraitinin gözəlliyini və həyatın qıymətini simvolik olaraq ifadə edir, “təzanə qaldı” ifadəsi həyatın möhkəmliyinin tez və sürətli itirilməsinin təsviridir. Bu sözlər və ifadələr təbii və incə düşünülmüşdür

Aşıq Alının ilhamı sərhədlərlə məhdudlaşdırmayaraq, əksinə, onun sənətindəki genişlik və dərinlikləri, rəngarəng ifadə tərzini, insanların ruhuna çatmaqda uğurlu olmuşdur [Məhərrəmov. 2001, s.211].

Göyçə Aşıq Məktəbi şairləri özünəməxsus ifadə üslubu və dil zənginliyi ilə seçilir. Şeirlərdə ənənəvi ifadələrin yanı sıra bəzən məcazi dil, bəzən də əxlaqi təsvirlərə sıxıntısız dərəcədə istifadə olunur. Bu, şairlərin mənbələrinə, mədəniyyətlərinə və dünya görüşlərinə geniş şəkildə əks olunan bir ifadə yaradıcılığıdır. Bundan əlavə, Göyçə aşıq məktəbi şairlərinin əsərlərində mürəkkəb təsvirlər, simvolik ifadələr və metaforlar geniş istifadə olunur. Bu, şeirlərin mənasının daha dərinlərə nüfuz etməsinə səbəb olur. Şairlər həm daxili hissləri və düşüncələri, həm də ictimai və sosial məsələləri işıqlandıraraq söz- ifadə yaradıcılığı ilə oxucunu şeirlərin dünyasına daxil edir. Bu ifadə yaradıcılığı Azərbaycan ədəbiyyatının ən möhkəm növlərindən biri olan aşıq sənətinin dəyərini və geniş mənsubiyyətini göstərən ən müsbət nümunələrdən biridir.

## ƏDƏBİYYAT

1. Abbaslı İ. Folklorşünaslıq axtarışları. 2 cilddə, I c. Bakı: 2009. Nurlan, 512 s.
2. Abbaslı İ. Folklorşünaslıq axtarışları. 2 cilddə, II c. Bakı: 2010. Qoliot Qkup QSC, 380 s.
3. Hüseynov M. Dil və poeziya. Bakı: 2008. Elm, s.235
4. İsmayılov H. Aşıq yaradıcılığı: mənşəyi və inkişaf mərhələləri. Bakı: 2002. Elm, 311 s.
5. İsmayılov H. Göyçə aşıqları və el şairləri. Bakı: 2006. Səda, 492 s.
6. Məhərrəmov Z. Unudulmaz sazlı-sözlü yurdumuz. Bakı: 2001. Çaşıoğlu, 430 s.
7. Məhərrəmov Z. XX əsr Göyçə aşıq mühiti. Bakı: 1997. Azərbaycan Ensiklopediyası, 124 s.
8. Məmmədov A.Ə. Göyçəli Aşıq Nəcəfin həyat və yaradıcılığı. Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın Avtoreferatı. Bakı: 2017, 33 s.
9. Qasımlı M. Ozan-aşıq sənəti. Bakı: 2011. Uğur, 158 s.
10. https://respublika-news.az/az/news/qizilvengli-asiq-ali


## SUMMARY


**Roya Aliyeva**


## CREATIVITY OF EXPRESSION IN THE WORKS OF GOCHA ASHIQ SCHOOL POETS


As one of the important branches of Azerbaijani folk literature, the Goycha Ashiq school is distinguished by its unique characteristics and style. Also, the poets of this school were distinguished by their word creation and made important contributions to the development of Azerbaijani poetry. In their works, special selection of words, poetic power of expressions and richness of content are noteworthy. The article also examines the creativity of words and expressions in the works of the poets of this school. Poets widely used literary tools such as metaphors, similes, idioms and proverbs, symbolism, rhyme and rhythm to express the riches of the language and the spiritual world of the people. Thus, the poets of that school created figurative expressions in their works by widely using metaphors. Through these expressions, their poems became more effective and memorable. Through the examples given in the article, the creativity of Ashiqs is demonstrated, and it is emphasized that their works greatly contributed to the development of the Azerbaijani language and the preservation of folk literature. The creativity of the poets of the Goyche ashiq school remains a source of inspiration for future generations. As an example, the article gives examples from the poems of Ashiq Najaf and Ashiq Ali. The creativity of words and expressions in the poems of these well-known Goyche lovers demonstrates their poetic mastery and language richness. Metaphors, similes, epithets and idioms in their works are valuable examples of Azerbaijani literature, and through these poems, our national and moral values are preserved and passed on to future generations. The poets of the Goyche ashiq school made a great contribution to the development of the language and the preservation of folk literature, and contributed to the enrichment of Azerbaijani literature and the survival of national and moral values. Their works expand the expressive possibilities of the language and provide future generations with a valuable source for studying the past and culture of the people.



***Key words:*** *Goyche ashiq school, creativity of words and phrases, Ashiq Najaf, Ashiq Ali*

## РЕЗЮМЕ

**Роя Алиева**

## ТВОРЧЕСТВО ВЫРАЖЕНИЯ В ПРОИЗВЕДЕНИЯХ ПОЭТОВ ШКОЛЫ ГОЧА АШИК

Школа Гейча Ашик, одна из важных ветвей азербайджанской народной литературы, отличается своими уникальными характеристиками и стилем. Также поэты этой школы отличались словотворчеством и внесли важный вклад в развитие азербайджанской поэзии. В их произведениях обращают на себя внимание особый подбор слов, поэтическая сила выражений и богатство содержания. В статье рассматривается креативность слова и выражения в творчестве поэтов этой школы. Поэты широко использовали такие литературные средства, как метафоры, сравнения, идиомы и пословицы, символику, рифму и ритм, для выражения богатства языка и духовного мира народа. Так, поэты этой школы создавали в своих произведениях образные выражения, широко используя метафоры. Благодаря этим выражениям их стихи стали более эффектными и запоминающимися. На примерах, приведенных в статье, демонстрируется творчество ашиков и подчеркивается, что их произведения внесли большой вклад в развитие азербайджанского языка и сохранение народной литературы. Творчество поэтов школы Гёйче ашик остается источником вдохновения для будущих поколений. В качестве примера в статье приводятся примеры из стихотворений Ашика Наджафа и Ашика Али. Креативность слов и выражений в стихах известных любителей Гойче демонстрирует их поэтическое мастерство и богатство языка. Метафоры, сравнения, эпитеты и идиомы в их произведениях являются ценными образцами азербайджанской литературы, а через эти стихи сохраняются и передаются будущим поколениям наши национальные и нравственные ценности. Поэты школы Гёйче ашик внесли большой вклад в развитие языка и сохранение народной литературы, способствовали обогащению азербайджанской литературы, сохранению национально-нравственных ценностей. Их произведения расширяют выразительные возможности языка и предоставляют будущим поколениям ценный источник для изучения прошлого и культуры народа.

***Ключевые слова:*** *Школа Гёйче ашик, креативность слов и фраз, Ашик Наджаф, Ашик Али*